

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 24 (20.925)

7 fevral 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 6 fevral tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında informasiya-kommunikasiya və kosmik sənaye sahələrinin inkişafında xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin əməkdaşları da vardır.

**“Tərəqqi” medalı ilə**

Musayev Susaməddin Heydar oğlu
Rüstəmov Rəşad Keykavuz oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Novruzova İradə Əli qızı

## Ədliyyə işçiləri 2013-cü ilin yekunlarını müzakirə ediblər



“Ədliyyə Nazirliyi 2013-cü ildə fəaliyyət istiqamətini qanunvericiliyə əsasən qurmuşdur. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə Milli Fəaliyyət Proqramının icrası üzrə nazirliyin tədbirlər planından irəli gələn vəzifələrin icrası təmin edilmiş, muxtar respublikanın hüquq-mühafizə və aidiyyəti orqanlarının təşkil etdiyi 15 konfrans və maarifləndirici tədbirlərdə nazirliyin əməkdaşları müvafiq hüquqi mövzularda çıxışlar etmişlər”. Bu fikirlər fevralın 6-da Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində 2013-cü ilin yekunları və cari ildə qarşıda duran vəzifələrin icrası ilə bağlı keçirilən kollegiya iclasında ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyevin məruzəsində səsləndirilmişdir.

Nazir bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə 2013-cü ildə 114 hüquqi akt daxil edilmişdir. Onlardan 62-si normativ-hüquqi akt, 2-si normativ xarakterli akt, 50-si isə qeyri-normativ-hüquqi aktlardır. Hesabat dövrü icra xidmətinin bölmə və qruplarının icraatına 1471 icra işi daxil olmuş, bunlardan 535 icra işinin icrası başa çatdırılmış, 725 icra işi icraya yönəlmiş, 91 icra işi geri qaytarılmış, 88 icra işi ərazi aidiyyəti üzrə göndərilmiş, 16 icra işinin icraatı dayandırılmış, 16 icra işi üzrə isə axtarış qərarı verilmişdir.

2013-cü il ərzində muxtar respublikanın şəhər və rayon dövlət notariat kontorları tərəfindən 45 min 406 müxtəlifməzmunlu notariat əməliyyatları aparılmış, 354 min 275 manat dövlət rüsumu ödənilmişdir.

Bələdiyyələrin fəaliyyətinə də toxunan Suliddin Əliyev qeyd etmişdir ki, ötən il bələdiyyə sahəsi ilə bağlı 16 seminar-müşavirə təşkil edilmişdir. Bələdiyyə fəaliyyətinin tənzimlənməsi, əvvəllər yol verilmiş nöqsanların aradan qaldırılması və bələdiyyələrə metodik köməkliyin göstərilməsi məqsədilə nazirlikdə yaradılmış komissiya muxtar respublikada fəaliyyət göstərən bələdiyyələrdə olmuş, nöqsanların aradan qaldırılması üçün tövsiyə və tapşırıq xarakterli aktlar tərtib edilmişdir.

Hesabat dövründə nazirliyin istintaq bölməsinə cinayət xarakterli materialın daxil olmadığını qeyd edən məruzəçi muxtar respublikada penitensiar sahədə cəza-icra siyasətinin qüsursuz yerinə yetirilməsindən də danışmış, məhkumların saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlərin həyata keçirilməsindən bəhs etmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

Səbuhi HƏSƏNOV

## Elm adamları ötən ilə yekun vurublar

***AMEA Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunlarına dair keçirilmiş müşavirəyə və AMEA Naxçıvan Bölməsinin qarşısında duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilmişdir. Yığıncağı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq məruzə ilə çıxış etmişdir.***



Bildirilmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar AMEA Naxçıvan Bölməsində 8 konfrans və 5 lektoriya keçirilmişdir.

Ötən il AMEA Naxçıvan Bölməsinin Elektron Kitabxanası istifadəyə verilmişdir. Kitabxanada 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılmış, elektron oxu zalı üçün 6 oxucu yeri yaradılmışdır. Kitabxananın **www.e-kitab.ameanb.nmr.az** adlı saytı fəaliyyətə başlamışdır.

Bölmədə yerinə yetirilən elmi-tədqiqat işlərindən də danışan natiq qeyd etmişdir ki, ötən il bölmə tərkibindəki elmi-tədqiqat müəssisələrində Naxçıvanın tarixinin, mədəniyyətinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin əhatəli şəkildə öyrənilməsi məqsədilə 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya daxil olan 34 iş 88 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilmişdir. “Bölmədə fəaliyyət göstərən 5 nəfər akademik və müxbir üzvlərin il ərzində 6 monoqrafiyası, 5 kitabı və 82 məqaləsi çapdan çıxmışdır”, – deyən İsmayıl Hacıyev əlavə etmişdir ki, 2013-cü ildə bölmə əməkdaşlarının 23 monoqrafiyası, 6 kitabı, 2 metodik vəsaiti, 508 elmi məqaləsi olmaqla, 539 elmi əsəri işıq üzü görmüşdür. Bildirilmişdir ki, həmin elmi əsərlərdən 134-ü xaricdə çapdan çıxmışdır.

Hesabat ilində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncamına əsasən, AMEA Naxçıvan Bölməsinin əməkdaşları çoxcildliyin I cildinin nəşrinə müvəffəq olmuşlar. Hazırda çoxcildliyin II cildi üzərində işlər davam etdirilir.

Bundan başqa, ötən il bölmə əməkdaşları tərəfindən 3 patent alınmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant layihələri müsabiqəsində bölmə əməkdaşlarının 3 qrant layihəsi qalib olmuşdur.

Sonra məruzə ətrafında bölmənin elmi-tədqiqat institutlarının direktorlarının çıxışları olmuşdur.

Xəbərlər şöbəsi

## İnsan hüquq və azadlıqlarının müdafiəsi təmin olunmuşdur

***Fevralın 6-da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrin icrasına dair iclas keçirilmişdir.***



İclasda Müvəkkil (Ombudsman) Ülkər Bayramova məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, ötən illərdə olduğu kimi, 2013-cü ildə də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini insan hüquqlarının müdafiəsi, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi və bu məqsədlə müvafiq maarifləndirici vəsaitlərin hazırlanması, paylanması, ictimaiyyətlə, informasiya vasitələri və beynəlxalq təşkilatların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlığının daha da inkişaf etdirilməsi istiqamətində davam etdirmişdir.

2013-cü il ərzində insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılmışdır. Müvəkkilə ünvanlanmış hər bir müraciətə həssaslıqla yanaşılmış, müvafiq araşdırmalar aparılmış, aid qurumlara sorğular ünvanlanmış, bununla yanaşı, şifahi qəbul zamanı ərizəçilərə çoxsaylı hüquqi məsləhətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) vətəndaşlar tərəfindən yazılı, şifahi və elektron formada müraciətlərin daxil olduğunu deyən Ülkər Bayramova müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxıldığını, daxil olan bütün müraciətlərin cavablandırıldığını bildirmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq-müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın Naxçıvan Muxtar Respublikasında icra vəziyyəti 2013-cü ildə də diqqət mərkəzində saxlanılmış, müvafiq dövlət qurumlarının iştirakı ilə konfrans keçirilmişdir.

2013-cü ildə reallaşdırılan mühüm tədbirlərdən biri də ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və insan hüquqları” mövzusunda yazı müsabiqəsinin keçirilməsi olmuşdur.

Məruzəçi qeyd etmişdir ki, beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi və yeni əlaqələrin yaradılması da daim diqqət mərkəzində saxlanılmış, 2013-cü ildə beynəlxalq qurumların Azərbaycan üzrə ofislərinin, xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə bir sıra görüşlər keçirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

İclasa yekun vuran Ülkər Bayramova vurğulamışdır ki, Ombudsman vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində səylərini bu il daha da artıracaqdır.

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının mətbuat xidməti*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində kollegiya iclası keçirilmişdir

***Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxış edərək bildirmişdir ki, 2013-cü il ərzində şəhər və rayon məşğulluq mərkəzləri tərəfindən 2632 nəfər işaxtaran münasib işlə təmin edilmişdir. Bu, ötən ildəkindən 62 nəfər çoxdur.***

Qeyd olunan dövr ərzində təşkil olunmuş əmək yarmarkalarında 1031 nəfər peşələrinə uyğun daimi işlə təmin olunmuş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində işaxtaranların peşəhazırlığı və ixtisasartırması məqsədilə təşkil olunmuş 19 peşə kursunu 328 müdavim bitirmişdir.

Qeyd olunmuşdur ki, hesabat dövrü ərzində 180 müəssisədə və tikinti sahəsində nəzarət işi aparılmış, əməyin mühafizəsi sahəsində mövcud nöqsanların aradan qaldırılmasına dair 32 halda icrası məcburi olan göstəriş verilmiş, 11 halda protokol tərtib edilərək müvafiq göstərişləri icra etməyən və inzibati xəta hadisəsinə yol verən şəxslərin, ümumilikdə, 11 min 500 manat məbləğində cərimələnməsinə qərar verilmişdir. Fərdi mühafizə vasitələrindən istifadə etməyən 84 işçi tikinti sahəsindən uzaqlaşdırılmış, 143 işçi isə fərdi mühafizə vasitələri ilə yerində təmin edilmişdir.



“İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar aparılmış araşdırmalar nəticəsində muxtar respublikada fəaliyyət göstərən 657 müəssisə ilə icbari sığorta müqavilələsinin bağlanılmasına nail olunmuşdur.

2013-cü ildə sağlamlıq imkanları məhdud 227 şəxsin Əlillərin Bərpa Mərkəzində, sağlamlıq imkanları məhdud 253 uşağın isə Uşaq Bərpa Mərkəzində müalicəsi təşkil edilmişdir. Həmçinin 9 nəfər məhdud fiziki imkanlı şəxs Ukrayna Respublikasının Saki şəhərinə, sağlamlıq imkanları məhdud 16 uşaq isə Evpatoriya şəhərinə müalicəyə göndərilmişdir. Dövlətimiz tərəfindən əlillərə göstərilən növbəti qayğının ifadəsi olaraq 2013-cü ildə müvafiq tibbi göstərişi olan sağlamlıq imkanları məhdud 30 şəxsə minik avtomobilləri verilmişdir.

“Muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğının məntiqi nəticəsidir ki, ölkəmizdə ilk dəfə olaraq Naxçıvanda ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş Paralimpiya İdman Festivalı keçirilmişdir”, – deyən Cavid Səfərov bildirmişdir ki, ötən ilin 16-17 noyabr tarixlərində Ağsuda keçirilən paralimpiyaçılar arasında ağırlıqqaldırma üzrə Azərbaycan birinciliyində muxtar respublikanı 2 nəfər təmsil etmiş və birinc medala layiq görülmüşlər.

Kollegiya iclasında 2013-cü ildə görülmüş işlərlə yanaşı, yol verilmiş nöqsanlardan da bəhs edilmiş, mövcud nöqsanların aradan qaldırılması istiqamətində görüləcək tədbirlər müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

# Görülən işlər təhlil edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Fevralın 6-da Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə dair yığıncaq keçirilmişdir. Yığıncağı xidmətin rəisi, baş miqrasiya xidməti müşaviri Fazil Ələkbərov açaraq bildirmişdir ki, xidmət tərəfindən 2013-cü il ərzində muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız yaşayan, qanunsuz əmək fəaliyyəti, eyni zamanda küçə ticarəti ilə məşğul olan 221 əcnəbi aşkarlanmışdır. Qanunvericiliyin tələblərini pozmuş əcnəbilərdən 70-i barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq, cərimə inzibati tənbeh növü tətbiq edilmişdir. 91 əcnəbi barəsində isə inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılmaq qərarı qəbul olunmuşdur. Bu əcnəbilərin idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə ölkəyə girişlərinə müəyyən müddətə məhdudiyyət qoyulmuş, 60 əcnəbi isə 48 saat ərzində ölkə hüdudlarından kənara çıxarılmışdır.

Bildirilmişdir ki, hesabat dövrü ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması ilə bağlı xidmətə 12 min 821 müraciət daxil olmuşdur. Əcnəbilərin muxtar respublika ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələrinə icazə verən rəsmi sənəd olan fərdi icazə ilə bağlı işəgötürənlər tərəfindən Dövlət Miqrasiya Xidmətinə daxil olmuş müraciətlər əsasında 511 əcnəbi fərdi icazə ilə təmin edilmişdir. Bundan başqa, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətləri əsasında xidmət tərəfindən 1090 əcnəbi və vətəndaşlığı olmayan şəxs yaşayış yeri üzrə qeydiyyata alınaraq Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi, 2 əcnəbi isə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə vəsiqəsi ilə təmin edilmişdir. Bu dövr ərzində Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı xidmətə 2 müraciət daxil olmuşdur. Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı 2013-cü il ərzində Dövlət Miqrasiya Xidmətinə 171 müraciət edilmişdir.

Sonra məruzə ətrafında xidmətin əməkdaşlarından Əfqan Əliyevin, Aysel Əliyevanın, İlqar Seyidovun və Zakir Məmmədovun çıxışları olmuşdur.

* * *



“Son illərdə muxtar respublikamızda aparılan meliorasiya, irriqasiya tədbirləri, lizinq xidməti, yanacaq-sürtgü yağlarına görə torpaq mülkiyyətçilərinə yardımların ödənilməsi, istifadə olunan gübrələrin 50 faizinin pulsuz verilməsi, toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, taxıl qəbul edən və soyuducu anbarların yaradılması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının inkişafına əsaslı stimul olmuşdur”. Bu fikirlər Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollegiya iclasında səsləndirilmişdir. Kənd təsərrüfatı naziri Elşad Əliyev bildirmişdir ki, 2013-cü ildə əkilmiş 35 min 324 hektar taxıl sahələrindən 102 min 960 ton məhsul toplanmışdır. Bu da 2012-ci illə müqayisədə 1112 ton çoxdur. Bununla yanaşı, 2109 hektar paxlalılar sahəsindən 6508 ton, 966 hektar dən üçün qarğıdalı sahəsindən 3882 ton, 260 hektar günəbaxan sahəsindən 694 ton, 2957 hektar kartof sahəsindən 41296 ton, 6116 hektar tərəvəz sahəsindən 66 min 497 ton, 2743 hektar bostan sahəsindən 39 min 37 ton, barverən meyvə bağlarından 41 min 633 ton, barverən üzüm sahələrindən 14 min 612 ton məhsul toplanmışdır ki, bu da əvvəlki illə müqayisədə istər əkin sahələri, istərsə də məhsul istehsalı baxımından artım deməkdir.

2013-cü ildə, ümumilikdə, kənd təsərrüfatı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 14 milyon 784 min manat kredit verilmişdir.

Görülmüş təşkilati tədbirlər nəticəsində payızlıq taxıl əkini işləri müvəffəqiyyətlə başa çatdırılmışdır. 2013-cü ilin payızında 29 min 697,7 hektar sahədə taxıl əkini keçirilmişdir. Onun 26 min 272,1 hektar və ya 88,5 faizini buğda, 3425,6 hektar və ya 11,5 faizini arpa təşkil etmişdir.

“Muxtar respublikada mal-qaranın və quşların baş sayının artması heyvandarlıq məhsullarının istehsalını artırmağa imkan yaratmışdır”, – deyən nazir vurğulamışdır ki, ötən il muxtar respublikada diri çəkidə 19 min 501 ton ət, 78 min 613 ton süd, 69 milyon 644 min ədəd yumurta, 982 ton yun, 1304 ton bal istehsal edilmişdir. Ümumilikdə, 2013-cü ildə kənd təsərrüfatının ümumi məhsulu 337,1 milyon manat təşkil etmişdir ki, bu da əvvəlki ildən 6,9 faiz çoxdur.

Kollegiya iclasında işdə buraxılan nöqsan və çatışmazlıqlar da ətraflı təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış etmişdir.

* * *

*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı idarənin sədri Səbuhi Məmmədov açaraq məruzə etmişdir.*

Qeyd olunmuşdur ki, bank və digər kredit təşkilatları tərəfindən 2013-cü il ərzində 49 milyon 766 min manat kredit verilmişdir. Bunun da 18 milyon 648 min manatı qısamüddətli, 31milyon 118 min manatı isə uzunmüddətli kreditlərdir. Verilmiş kreditin 35,3 faizini kiçikhəcmli kreditlər təşkil edir. Gələcəkdə bu cür kreditlərin verilməsinin həcminin artırılması istiqamətində lazımi iş aparılır.

Səbuhi Məmmədov 2013-cü ildə 75 hüquqi, 8374 fiziki şəxs olmaqla, 8449 müştəriyə yeni bank hesabı açıldığını, açılmış bank hesablarının 8395-nin fəaliyyət göstərdiyini diqqətə çatdıraraq bildirmişdir ki, artıq sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərlə yanaşı, əhalinin müxtəlif təbəqələrindən olan insanlar da sürətlə bank hesabları açır, fərdi ödəniş kartları əldə edir, hesablaşmaları bank və ödəniş sistemləri vasitəsilə aparırlar. Bunun nəticəsidir ki, 2013-cü ildə bank müştərilərinin sayı 8449 ədəd və ya 34,2 faiz artmışdır.

“Nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilir”. Dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanlarının artırılmasından bəhs edən Səbuhi Məmmədov onu da bildirmişdir ki, artıq muxtar respublika vətəndaşları ödəniş kartları vasitəsilə vergi və rüsumları, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, gömrük rüsumlarını, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq ödənişlərini elektron ödəniş formasında apara bilirlər.



Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsi ilə aparılması üçün POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılmış, 1 yanvar 2014-cü il tarixə onların sayı 248 ədəd olmaqla, keçən ilin müvafiq dövrü ilə müqayisədə 152 ədəd artmışdır.

Vurğulanmışdır ki, 2013-cü il ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 5 milyon 71 min manat, o cümlədən xarici valyuta ilə 1 milyon 227 min manat təşkil etmişdir. Banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq, 4 faizdən 20 faizədək illik faiz ödənilir. Ötən il keçmiş SSRİ Əmanət Bankının Naxçıvan Muxtar Respublikasında olan əmanətçilərinə birdəfəlik fərdi ödəmələr davam etdirilmiş, 37 min 536 nəfər əmanətçiyə 13 milyon 993 min manat vəsait ödənilmiş və proses tamamilə başa çatdırılmışdır.

Məruzəçi bildirmişdir ki, bütün bunlarla yanaşı, işdə müəyyən nöqsanlar da mövcuddur. Xidmət və ictimai-iaşə obyektlərində quraşdırılmış POS-terminallardan istifadə aşağı səviyyədədir, nağd hesablaşmalar üstünlük təşkil edir. Bəzi hallarda verilmiş kreditlər təyinatına uyğun istifadə olunmur. Kreditlərin qiymətləndirilməsi düzgün aparılmır, monitorinqlər səthi keçirilir. Bunların nəticəsidir ki, 1 yanvar 2014-cü il tarixə 4 milyon 500 min manatdan çox vaxtı keçmiş borclar mövcuddur.

2014-cü ildə muxtar respublikada fəaliyyət göstərən bütün bank qurumları qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməli, ötən il işdə buraxılmış nöqsanlar aradan qaldırılmalıdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış etmişdir.

Yığıncağa Səbuhi Məmmədov yekun vurmuşdur.

* * *



***Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində ötən il görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında komitə sədri Valeh Vəliyev məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, 2013-cü il ərzində muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan qanunvericiliyə uyğun istifadə edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə müəyyən işlər görülmüş, müxtəlif yaşayış məntəqələrinin bütün bələdiyyələrində torpaqlardan istifadə vəziyyəti yerində yoxlanılmışdır. Aparılan yoxlamalar nəticəsində məlum olmuşdur ki, hələ də yerlərdə torpaq sahələrinin qanunsuz olaraq çəpərlənməsi və icarə müqaviləsi bağlanmadan istifadə edilməsi hallarına rast gəlinir. Bunun üçün yerlərdə torpaq mülkiyyətçilərinə lazımi izahatlar verilmiş və bu işlərin qarşısının tez bir zamanda alınması məqsədilə şəhər və rayon icra hakimiyyətləri məlumatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik unudulmuş (aborigen) meyvə-tərəvəz sortlarının bərpası və əkilib-becərilməsi üçün bir sıra tədbirlərin həyata keçirildiyini qeyd edən Valeh Vəliyev demişdir ki, Şərur və Sədərək rayonları ərazisində şoranlaşmış, bataqlaşmış, şorakətləşmiş və digər səbəblərdən münbit qatı korlanmış torpaq sahələrinin sərhədləri müəyyənləşdirilmiş, komitə tərəfindən planları hazırlanmışdır. İstifadə olunmayan əkinəyararlı torpaqların əkin dövriyyəsinə cəlb edilməsi məqsədilə Kəngərli rayonunun Böyükdüz massivində yerləşən 1000 hektar qış otlaq sahəsində olan əkinəyararlı torpaq sahəsinin uçotu dəyişdirilərək Naxçıvan “Taxıl Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəsinə verilmişdir.

Bildirilmişdir ki, “Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar muxtar respublikanın Şahbuz rayonuna daxil olan bütün bələdiyyələrin sərhəd xəritələrinə dair müvafiq yer quruluşu sənədləri elektron variantda hazırlanaraq komitənin məlumat bazasına yığılmışdır. Hal-hazırda Şərur rayon bələdiyyələri üzrə işlər davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

“2013-cü ildə rayonda quruculuq tədbirlərinin əhatə dairəsi daha geniş vüsət almış, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı üçün 3 mərtəbəli yeni bina, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayon bazası istifadəyə verilmiş, “28 May” küçəsində yerləşən 15 nömrəli bina əsaslı təmir edilmiş, Heydər Əliyev prospekti boyunca avtomobil yolu yenidən qurulmuş, Ağbulaq kəndində İstirahət Mərkəzi, Kükü, Güney Qışlaq, Ayrınc, Sələsüz, Qızıl Qışlaq kəndlərində kənd və xidmət mərkəzləri, Kükü, Qızıl Qışlaq kəndlərində məktəb binaları, Kükü, Sələsüz kəndlərində həkim ambulatoriyaları, Mərəlik kəndində kənd mərkəzi tikilib istifadəyə verilmiş, Sələsüz və Ayrınc kəndlərində məktəb binaları əsaslı təmir edilmişdir”. Şahbuz Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə çıxış edən icra başçısı Nurəddin Quliyev 2013-cü ildə aparılan quruculuq işlərinin yuxarıda qeyd olunanlarla bitmədiyini bildirərək vurğulamışdır ki, quruculuq tədbirləri digər sahələrdə də davam etdirilmişdir. Belə ki, rayondaxili avtomobil yollarının təmirinə, abadlığına diqqət xeyli artırılmış, uzunluğu 59,2 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolunun tikintisi başa çatmış, yolun Ayrınc kəndi ərazisindən Kükü və Güney Qışlaq kəndinədək olan 20 kilometr, Naxçıvan-Batabat magistral avtomobil yolundan Ağbulaq-Gömür kəndlərinədək uzunluğu 8 kilometr olan yola asfalt örtük salınmışdır.



Qeyd olunmuşdur ki, rayonun iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. Göstərilən dövlət qayğısı hesabına ötən il əkinçiliyə maraq xeyli artmış, 3 min 703 ton taxıl, 6 min 863,2 ton kartof, 715 ton paxlalı, 4 min 796,9 ton tərəvəz, 69,6 ton bostan məhsulları, 5 min 823,5 ton meyvə və 172 ton üzüm istehsal edilmişdir.

“Rayon əhalisinin elektrik enerjisi ilə təminatı diqqət mərkəzində saxlanılmış, kəndlərdə və rayon mərkəzində yeni istifadəyə verilmiş obyektlərdə 10 ədəd yeni transformator qoyulmuşdur”, – deyən icra başçısı onu da qeyd etmişdir ki, enerji itkisinin azaldılması məqsədilə Şahbuz şəhərində, Keçili, Aşağı Qışlaq, Kükü və Ayrınc kəndlərində enerji verilişi nizama salınmış, 72 abonentə elektrik xətti çəkilmişdir.

Aparılan məqsədyönlü iqtisadi siyasətin əhalinin maddi-rifah halının yüksəldilməsinə zəmin yaratdığını bildirən icra başçısı diqqətə çatdırmışdır ki, əhaliyə göstərilən bank xidmətini yaxşılaşdırmaq məqsədilə Şahbuz şəhərində 3, Kolanı və Sələsüz kəndlərinin hər birində 1 bankomat quraşdırılmışdır.

Nurəddin Quliyev ötən il qazanılan uğurlarla yanaşı, işdə buraxılan nöqsanlardan da bəhs etmiş, vəzifə borcunu yerinə yetirməyən bəzi təşkilat rəhbərlərinin işdən azad olunduğunu diqqətə çatdırmış, gələcəkdə belə şəxslər barəsində daha ciddi tədbirlər görüləcəyini bildirmiş, idarə, müəssisə və təşkilatlarda əmək və icra intizamına tələb olunan səviyyədə əməl edilməsinin zəruriliyini vurğulamışdır.

Sonda müzakirə edilən məsələ ilə əlaqədar aidiyyəti təşkilatların rəhbərlərinin çıxışları olmuşdur.

**Xəbərlər şöbəsi**



# Möminə xatın məqbərəsi

## ilə bağlı aparılan araşdırmalar haqqında

*Azərbaycan memarlığının ən nadir və unikal abidələrindən biri Möminə xatın məqbərəsidir. Hicri tarixi ilə 582-ci ilin məhərrəm ayında (miladi 1186-cı il, aprel) görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilən bu məqbərə dünyanın monumental abidələrindəndir. Qeyd edək ki, orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin yaradıcısı Əcəmi Naxçıvani inşa etdiyi abidələrin üzərində özünü "Əbubəkr oğlu Əcəmi, naxçıvanlı memar" kimi təqdim etmişdir.*

XII əsr Azərbaycan mədəniyyətinin və ictimai fikrinin çiçəkləndiyi bir dövrdə yaşayıb yaratmış memarın inşa etdiyi bu abidə o qədər zərif, o dərəcədə yüksək bədii təfəkkür məhsuludur ki, ona tamaşa etməyə gələni öz cazibəsində saxlaya bilir. Çünki məqbərədə riyazi təfəkkürlə bədiiliyin vəhdəti duyulur. Abidəyə həndəsi ornamentlər böyük ustalıqla həkk edilib. Xarici səthləri bir-birindən ayıran tillərin memarlıq bölgüsünün dəqiqliyinə heyran qalmaya bilmirsən. Möminə xatın türbəsini inşa edən Memar Əcəmi kufi xətli kitabələri həndəsi sistemləri xatırladan mürəkkəb naxış şəbəkələrinə uyğunlaşdırmışdır. Bütün bunlar abidənin ümumi kompozisiyasını tamaşaçıya sevdirə bilir. Həmin kufi xətli kitabələrdən biri bizi xəyalən on ikinci yüzilliyə aparır: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Bu inci yadigar Şərq memarlığı üçün məktəb olmuşdur. Əcəmi yaradıcılığının təsiri ilə 1196-cı ildə inşa edilən Azərbaycanın Marağa şəhərində Göy günbəz, Culfadakı Gülüstan türbəsi (XIII əsr), XIV əsrdə tikilən Qarabağlar, həmçinin Bərdə və Salmas türbələri, türk mühəndisi və memarı Koca Sinan Əbdülmənnan oğlunun (1489-1490 Kayseri-Ağırnas kəndi – 1588 İstanbul) İstanbulda memarı olduğu türbələr bu gün də dünyanı heyrətləndirməkdədir. Memar Koca Sinan 1514, 1535-ci illərdə Türkiyə ordusunun tərkibində yeniçəri korpusunda hərbi xidmətdə olarkən Azərbaycanda və onun ayrılmaz hissəsi Naxçıvanda olmuşdur. Bu haqda alman sənətşünası E.Dits məlumat vermişdir.

Tarixdə unikum, yəni qeyri-adi şəxsiyyətlərin mürəkkəb taleləri olduğu kimi, unikal, yəni orijinal abidələrin də özünəməxsus taleləri vardır. Çox təəssüflər ki, Möminə xatın türbəsi də bəzən Naxçıvana işğalçı kimi gələn xarici qoşunların qısqanclığına səbəb olmuş, ona silah tuşlayanlar və atanlar olmuşdur.

1905-ci ildə çəkilmiş bir fotoda bu, aydın görünür. Naxçıvan xanlığı 1828-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra rus hərbçi şərqşünaslar, etnoqraflar və arxeoloqlar bu abidədə axtarışlar və qazıntılar aparmışlar. Orta məktəbdə oxuduğumuz illərdən üzü bəri eşitdiyimiz elə söz-



söhbətlər var ki, onlara biganə qalmaq olmur. Elə bu yazımızın əsas qayəsində də həmin axtarışlardan biri dayanır.

Möminə xatın Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Eldəniz Şəmsəddinin (hakimiyyətdə olduğu illər – 1136-1174) həyat yoldaşı, Məhəmməd Cahan Pəhləvanın (hakimiyyətdə olduğu illər – 1174-1186) və Qızıl Arslanın (hakimiyyətdə olduğu illər – 1186-1191) anasıdır. Bəzi müəlliflər yanlış olaraq Möminə xatını Cahan Pəhləvanın xanımı kimi yazırlar. Məhəmməd Cahan Pəhləvanın həyat yoldaşı Zahidə xatın olmuşdur. Cəlaliyyə isə onların qızıdır.

Möminə xatın Azərbaycanın diplomat qadınlarındandır. O, Atabəylər dövlətinin xarici və daxili siyasətində ərinin və oğlanlarının yaxın köməkçisi olmuşdur. Elə bu sədaqətinə görə əri Şəmsəddin Eldəniz onun məzarı üstündə əzəmətli məqbərə tikdirmək qərarı vermişdir. Möminə xatın 30 sentyabr 1175-ci ildə Naxçıvanda əbədiyyətə qovuşmuş, ondan bir ay sonra Şəmsəddin Eldəniz Atabəy dünyadan köçmüşdür. Özülü 1175-ci ilin oktyabrında qoyulan məqbərənin inşası onların sədaqətli oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən 1186-cı ildə başa çatdırılmışdır. Deməli, məqbərə 10 il 3 aya inşa edilmişdir.

Möminə xatın türbəsinin hündürlüyü 34 metr olmuş, sonralar isə 8 metr hündürlükdə xarici örtüyü dağılmışdır (daha doğrusu, dağıdılmışdır, bu haqda bir az sonra). Türbə iki hissədən – yeraltı və yerüstü hissələrdən ibarətdir. Arxeoloqların yazdığına görə, yeraltı sərdabə hissəsi 10 bucaqlıdır. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər bir küncünə doğru bir tağ salınmışdır. Türbənin yerüstü hissəsi xaricdən 10 guşəli, daxildən isə dairəvidir.

İndi gəlib çatdıq əsl mətləbə – 1953-cü ildə Möminə xatın türbəsində aparılan qazıntılara. Onu da deyək ki, bu axtarışları akademik İsa Həbibbəylinin məsləhəti ilə aparmışıq.

Sözügedən qazıntıdan xəbəri olan insanların Naxçıvan şəhərində axtarışına başladıq. Çox axtarışdan sonra həmin qazıntılarda iştirak edən bir nəfərin – Ənvər Nəsir oğlu Bağırovun sağ olduğunu öyrəndik. Ənvər Bağırov 1927-ci ildə Naxçıvan şəhərində Möminə xatın türbəsinə yaxın "Qala" məhəlləsində anadan olmuşdur. Babaları İrəvan mahalındandır. Ömrü boyu sürücü işləyən Ənvər əmi ilə zəngləşib görüşməyi qərara alırıq. Onun verdiyi məlumatlar çox maraqlı idi.

Ənvər Bağırovun dedikləri: "136 il ömür sürmüş Hürzad xalam türbənin lap yaxınlığında yaşayırdı. 26 yaşım vardı və hər gün onlara gəlirdim.

1953-cü ilin qızmar yay günlərindən birində eşitdik ki, türbədə axtarışlar aparmaq üçün Moskvadan alimlər gəliblər. Məqbərənin üstünə çıxmaq üçün taxtabənd hazırladılar. Komissiya (ekspedisiya – müəllif), səhv etmirəmsə, 10 nəfərdən ibarət idi. Aralarında bir qadın vardı. Çox fəallıq göstərirdi. Taxtabəndi qurandan sonra məqbərənin üstünə çıxıb onun şərq hissəsini sökməyi fəhlələrə göstəriş verdilər. Çox çətinliklə qazılırdı. Biz gənclər də çıxıb baxırdıq. Bizə izah etməsələr də, baxmağa icazə verirdilər. Bir adam boyu qazandan sonra uzun bir taxta sandıq çıxdı. Onun ağzını açdılar. Hamısı qədim kitablar və nəyəsə bükülmüş sənədlər idi. Karton üzərinə çəkilmiş bir qadın şəkli də (3 ədəd) vardı. Rus alimləri çox sevinirdilər. Məqbərənin üzərində, günçıxan tərəfdə qazdıqları yer 3-4 gün qaldı. Mən oraya düşdüm ki, hündürlüyünü bilim. Sinəmdən yuxarı idi. Sonralar oranı Moskvadan gələnlər betonladılar.



Onu da deyim ki, o vaxtlar məqbərənin qapısı indiki yerdə, yeraltı sərdabənin giriş qapısı isə qərbdən idi. Sərdabəyə girəndə sütundan solda iki qoşa qəbir vardı. Üzəri minarənin tikildiyi kərpiclə örtülmüşdü.

Bir gün alimlərin başçısı mənə dedi ki, Bağırov, sən maşınınla bizi Culfaya apara bilərsənmi? Dedim, apararam. Biz maşınla Culfaya yola düşdük. Ancaq indiki quşçuluq fabrikinin tikildiyi yerə çatanda mənə dedilər ki, maşını yuxarıdakı təpəliyə tərəf sür. Dəmir teleqraf dirəklərinə çatanda maşını saxladıb yerə düşdülər. Mənə dedilər ki, bu teleqraf xətti Moskvadan Hindistana gedir. Maşınımda gələn 3 nəfərdən biri dediyim qadın idi. O, əlində bir kitab tutmuşdu. Kitabı açıb baxdı. Onu da deyim ki, bu dirəklərin üzərində nömrə yazılmışdı. 20-62, yaxud 20-63-cü nömrənin yanındakı təpənin üstünü qazmağa başladılar. Çox nəhəng bir qəbir çıxdı. Onun sümüklərini yeşiyə yığdılar. Soruşdum, dedilər ki, müharibədə həlak olan bir Knyazın məzarıdır. Və biz Culfaya getdik. Onlar axırıncı dəmir dirəyin nömrəsini qeyd edib Naxçıvana qayıtdılar".

Arada soruşuram ki, Ənvər əmi, sən indi o təpəni tapa bilərsənmi? Deyir ki, taparam. Ənvər əminin 1964-cü ilə aid bir xatirəsi də yerinə düşər: "Biz bir neçə nəfər gənc Köhnə qalada ov edirdik. İndiki Nuh türbəsinin yerində uçuntular içində bir qəbir qülləsi vardı. Birdən yanımızda maşın dayandı. Naxçıvanda hamının ehtiyat etdiyi milis erməni Aram maşından düşüb bizə acıqlandı ki, burada ov etmək olmaz, tez çıxıb gedin. Biz gedib qala divarının dalında gizlənib baxmağa başladıq. Onlar dediyim qülləni vurub uçurdular və nəyisə oradan götürüb ağ parçaya bükdülər, maşına qoyub tələsik sürüb getdilər. Gəlib baxdıq. Orada iri bir çuxur vardı".

Ənvər əmi sonda qeyd edir ki, Möminə xatın türbəsində qəbirlərin qazılmasından xəbərim yoxdur. 1973-cü ildə Naxçıvan Şəhər Soveti niyəsə Rəhim xanın həyətindəki su kranını gətirib türbənin qərbində yerləşdirdi. Gecə-gündüz axan su onun bir tərəfinin əyilməsinə səbəb oldu.

***Müəllif şərhi***

Möminə xatın türbəsinin yeraltı sərdabəsinə girişin qərbdən olması doğrudur. Hətta məxəzlərdə yazılıb ki, türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. 1830-cu ildə türbənin çəkilmiş litoqrafik şəklində yeraltı sərdabəyə giriş qapısı şərqdən deyil (indiki yerdə). Türbənin günbəz hissəsi boşqab formasındadır. 1905-ci ilə aid şəkildə isə artıq belə deyil. Müəyyən qədər dağıdılmış formadadır. Orada saxlanılan kitablar, sənədlər hökmən Atabəylərə aid olmuşdur. Həmin ekspedisiyanın hesabatları, yəqin ki, haradasa saxlanılır və bu haqda məlumatlar var. Çox güman ki, bu arxiv-kitabxana Atabəylərə aid imiş. Rusiya belə qədim kitabları, risalələri, əsasən, Sankt-Peterburqakı Saltıkov-Şedrin adına kütləvi kitabxananın xüsusi fondlarında saxlayır. Məşhur Ərdəbil və Axalsıx paşalığının əsir aparılmış kitabxanası da burada saxlanılır.

Ənvər əminin dediyi bu arxiv-kitabxananı tapmaq üçün Naxçıvanda axtarışda olan elmi ekspedisiyaların hesabatlarını axtarıb tapmaq və oxuyub öyrənmək axtarışlara kömək edə bilər. Axtarışlar zamanı məlum oldu ki, məzarlar 1957-ci ildə qazılıb və deyilənə görə, sümüklər Sankt-Peterburqdakı Böyük Pyotr adına (sabiq kunstkamera) Antropologiya və Etnoqrafiya Muzeyinə aparılmışdır. Məzarların 1957-ci ildə açılması haqqında məlumatı bizə kinorejissor Tahir Əliyev vermişdir. O, bu məqbərə haqqında sənədli film də çəkmişdir.

O qazıntının şahidi olan Cəfər kişi 5 aydır ki, dünyasını dəyişmişdir. Onun dediyinə görə, qazılmış məzarın birində parıltılı, üstü ərəb hərfləri ilə yazılmış bəzək əşyası da varmış. Cəfər kişi hətta bunun ləl olduğunu da söyləyirmiş. Ermitaj adı ilə aparılmış bu bəzək əşyasının, yəqin ki, təsviri də haradasa saxlanılır. Axtarışlar əsas verir deyək ki, qoşa məzarlar Möminə xatının və onun əri Şəmsəddin Eldəniz Atabəyin məzarları imiş. Çünki onlar bir ay ara ilə vəfat etmişlər. İndi canlı arxiv kimi yaşayan Ənvər əmi bu qoşa məzarları görən yeganə şahiddir.

Yəqin ki, dünya memarlığına meydan oxuyan Möminə xatın türbəsi (bəzi sənədlərdə Atabəylər məqbərəsi) ilə bağlı aparılacaq ciddi və kompleks axtarışlar bir çox qaranlıq məsələlərə aydınlıq gətirəcək.

***Sonda maraqlı bir məsələyə də toxunmaq istərdik. XII əsrdə Azərbaycanda qədim nücum elmi çox inkişaf etmişdir. Nizami Gəncəvinin və digər müəlliflərin yaradıcılığı buna əyani sübutdur. Əcəmi Naxçıvaninin də dəqiqliklə inşa etdiyi türbələrdə nücum elmi ilə bağlı elementlər mövcuddur. Burada həndəsənin sferik triqonometriya bölməsi ilə əlaqəli elmi izahını gözləyən məsələlər vardır. Bir sözlə, bu türbə göylər aləmi ilə də çox əlaqəlidir və onun dərin mənalara malik kosmik sirri var.***

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

## Xalq artistinin yubileyi qeyd edilib

*Dünən Azərbaycan Respublikasının xalq artisti Rövşən Hüseynovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov yubilyarın yaradıcılığından, Naxçıvan teatrının səhnəsində yaratdığı müxtəlifxarakterli obraz və personajlardan söhbət açmışdır. Qeyd edilmişdir ki, Xalq artistinin bu günə qədər yaratdığı obrazlar yaddaqalan olmuş, tamaşaçı rəğbətini qazanmışdır. Onun səhnəmizdə yaratdığı Özdəmir ("Şeyx Sənan"), Şmaqa ("Günahsız müqəssirlər"), Ədhəm ("Nadir şah"), Şirinbala ("Şirinbala bal yığır"), Həsənqulu bəy ("O olmasın, bu olsun"), Bəhram ("Solğun çiçəklər"), Simeon ("Qaraağaclar altında məhəbbət"), Lətif müəllim ("Sahilsiz çaylar"), Lalbyuz ("Dəli yığıncağı"), Ayəba ("Atabəylər"), Həfçi Məlik ("Adamın adamı"), Andrea ("Sükut divarı") və başqa çoxsaylı obrazlar, personajlar aktyorun yaradıcılıq imkanlarının geniş və rəngarəngliyindən xəbər verir. Rövşən Hüseynov istər dramatik, istər faciəvi, istərsə də komik obrazları düşdüyü psixoloji mühitə uyğun canlandırmaqla geniş yaradıcılıq imkanı nümayiş etdirən sənətkarlardandır.

Vurğulanmışdır ki, Rövşən Hüseynovun teatrımızın inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, o, "Azərbaycan Respublikasının xalq artisti" fəxri adına layiq görülmüşdür.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov yubilyarı Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından təbrik etmişdir. Onun Naxçıvan teatrında xidmətlərindən danışan Rəhman Məmmədov qeyd etmişdir ki, Rövşən Hüseynov Naxçıvan teatrının səhnəsində komik və dramatik obrazları eyni sənətkarlıqla yaradan aktyorlardandır.

Sonra Xalq artistinin sənət dostları, Azərbaycan Respublikasının əməkdar artistləri, Prezident təqaüdçüləri Xəlil Hüseynov, Tofiq Mövləvi, Azərbaycan Respublikasının əməkdar artisti Yusif Allahverdiyev, Xalq artistləri Kamran Quliyev, Rza Xudiyev, Xalq rəssamı Hüseynqulu Əliyev, rejissor Tofiq Seyidov, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov çıxış edərək onа yaradıcılıq uğurları arzulamışlar.

Sonda yubilyar, Xalq artisti Rövşən Hüseynov çıxış edərək yaradıcılığına verilən yüksək qiymətə, ona göstərilən diqqət və qayğıya, haqqında söylənilən xoş fikirlərə görə minnətdarlığını bildirmişdir.

**Əli RZAYEV**

# Gül-çiçəyin görüşünə gəlmişdik

*Bəlkə də, torpağı bu qədər*
*sevməzdik, çiçək bitirməsəydi,*
*Qışın qəhrinə dözməzdik, bəlkə*
*də, yazın yolunu gözləməsəydik.*

Çiçək-çiçək olub bu çiçəklər dilimizdə əzizlənməsəydi dağlarımızın, dərələrimizin torpaq köynəyini cırıb bizə türfə gözəlliyini göstərməzdi onlar. Yurdumuzun aranında, dağında kök atıb, pöhrə verib gözümüzü, könlümüzü oxşayan güllər, çiçəklər, minbir dərdin dərmanı olan bitkilər müxtəlif fəsillərdə, elə müxtəlif rəngdə, müxtəlif gözəllikdə insanların “görüşünə” gəlirlər.

Bu günlərdə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin foyesində boy-boya veribmiş kimi sərgilənən təbiət sərgisinə baxarkən xəyalım dağlı-aranlı bu yurdu gəzib dolaşdı. Qərənfili, nərgizi, laləni, bənövşəni, süsəni, sünbülü ilin bu vədəsində görüşdürən sərgi müəllifi Qaşdar Əliyev sanki insanları ovsunlamaq üçün bu qədər zəngin bir sərgi yaratmışdı. Sərgiyə baxarkən həm də düşünürdüm ki, torpağın möcüzəsidir bu çiçəklər. Sərgi müəllifinin minbir həvəslə hazırlayıb herbari şəklində gənclərə, şagirdlərə təqdim etdiyi güllər, çiçəklər, müxtəlif bitkilər torpağın üzü gülən kimi boy göstərəcəklər. Üzü bozarmış soyuğun qılınc kimi kəsdiyi mart ayında – xalqın boz ay kimi tanıtdığı maqamda Günəş beşcə gün gülümsəyib zərrin şüalarını torpaqla görüşə göndərəndə sirri açılmamış boynubükük bənövşənin kol dibindən ürkək-ürkək boylanmasını görəcəyik. Belə bir gözəlliyi görüb, duyub, qiymətləndirib illər uzunu onları bir yerə toplayan Qaşdar Əliyev gənclik həvəsi ilə bu günlərdə öz “var-dövləti”ni Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin foyesində sərgiləməklə məktəblilərdə təbiətimizə qarşı böyük maraq oyatdı. Rayon Ekoloji Tərbiyə Mərkəzinin kollektivi tərəfindən təşkil olunan tədbirin şəhər məktəbində keçirilməsi tədbir iştirakçılarını – müəllimləri və şagirdləri sevindirdi. Tədbirdə çıxış edənlər Şahbuzun əsrarəngiz təbiətindən, onun gözəlliklərindən, dağından, aranından söhbət açıb o gözəllikləri buraya sərən Qaşdar Əliyevin əməyini yüksək qiymətləndirdilər. Sənətinin vurğunu, güllərin, çiçəklərin dilmancı olmağa bir ömür həsr edən Q.Əliyev bildirdi ki, hər gülün öz dili, hər çiçəyin öz xasiyyəti var. Bir xəfif mehdən ləçəkləri tökülə bilən, bir nadan əlində ömrü heç olan bu gözəllik qayğı sevir. Təbiətin gözəlliyi bu gözəlliyi duya bilən insanın ömrünü uzadır; təbiət bütün varını, dövlətini belə insanların sağlamlığına ərməğan edir.

Bu gözəlliyin sehrində şagirdlərə Vətən sevgisi aşılandı.

Güllərin, çiçəklərin səliqə-sahmanla qurudulmuş formada adlarının beş müxtəlif dildə yazılışı ilə sərgiləndiyi təbiət sərgisində muxtar respublikamızın dağından, aranından 200-dən çox qonaq tanıdıldı. Məktəblilər əksəriyyətinin adını bilmədiyi, rəngini görmədiyi, ətrini duymadığı çiçəklər, otlar, güllər haqqında sərgi müəllifinə ardı-arası kəsilməyən suallar verirdilər. Q.Əliyev isə heç bir sualı cavabsız qoymamaq üçün hündürdən və tələsə-tələsə hansı bitkini hansı vaxt haradan dərdiyini, onun məkanını, hansı dərdə çarə olduğunu böyük həvəslə izah etməyə çalışırdı. Bildirirdi ki, hər ləçəyi bir sirli aləm olan çiçəklərin duruşunu, baxışını duymaq, oxumaq üçün onları sevmək, onlara qayğı göstərmək gərəkdir.

Yeri gəlmişkən qeyd edək ki, rayon Ekoloji Tərbiyə Mərkəzinin kollektivi belə xeyirxah tədbirlərin təşkilatçısı və iştirakçısı kimi ötən il də böyük uğurlara imza atıb. Kollektiv üzvləri muxtar respublika üzrə keçirilən “Meşələri qoruyaq”, “Təbiət bizim sərvətimizdir” müsabiqələrinin və “Gənc təbiətçilər hərəkatı”nın iştirakçısı və qalibi olaraq diplomlarla təltif olunublar. Bu, onu göstərir ki, adıçəkilən kollektiv gənc nəslin təlim-tərbiyəsində, Vətənə məhəbbət ruhunda böyüməsində, yurdumuzun tanıdılmasında qarşılarına qoyulan vəzifələri yerinə yetirməyə çalışır.

Tədbirdə iştirak edən məktəblilər arasında sual-cavab keçirildi. Yurdumuzda bitən hansı gülləri, hansı bitkiləri, hansı ağacları tanıdıqlarını çox böyük həvəslə izah etməyə çalışan kiçikyaşlı məktəblilər də sevinclərini beləcə ifadə edirdilər.

Neçə iqlim qurşağında nəfəs bərəkətli torpağımız baharda göy qurşağına bənzəyir. Hər rəngdə bir türfə dodaq gülümsəyir bağlarımızın, bağçalarımızın bahar yelindən məst olmuş sinəsində. Yazın nəfəsi dəyər-dəyməz torpaq altdan baş qaldıran qərənfildən tutmuş ta payızın yelqovanına kimi bu məclisə qonaq gəlmiş çiçəklərimiz, güllərimiz sanki yazın həsrətlə yolunu gözləyirlərmiş kimi sapsarı saralmışdılar. Bu sarılıqda da öz gözəlliyini itirməyən təbiətin loğman çiçəklərini uşaqlara, gənclərə tanıdan və sevdirən Q.Əliyev uşaqları da güllərə bənzətdiyini bildirdi. Sərgi müəllifi bu xeyirxah işdə ona köməklik göstərən tədbir təşkilatçılarına, Ekoloji Tərbiyə Mərkəzinin və Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin kollektivlərinə minnətdarlıq etdi.

Bu il muxtariyyətinin 90 illik yubileyini qeyd edərək hər bir məclisdə, tədbirdə haqqında ürəkdolusu danışdığımız Naxçıvanımızın bugünkü gözəlliyindən heyranlıqla söhbət açırıq. Quruculuqla yeniləşən Naxçıvanın hər bir bölgəsində yaraşığı ilə könülləri oxşayan yüzlərlə müasir binalar, yollar, körpülər salındığını qeyd edərkən unutmamalıyıq ki, bu gözəlliyi tamamlayan təbiətimizdir. Bir vaxtlar təklənmiş Naxçıvan əhalisinin ümidi, pənahı olan təbiət yaraşığı ağaclar, kollar, budaqlar ehtiyac ucbatından saatbasaat kəsilib daşındığından dağlarımızda, dərələrimizdə, hətta kəndlərimizdə belə, yaşıllığın yerini bozarmış torpaqlar, dağlar, dərələr tuturdu. Bu da ətraf mühitin çirklənməsinə, həmçinin yurdumuzun gözəlliyinin itməsinə səbəb olurdu. Lakin muxtar respublikamızda ulu öndərin başladığı yaşıllaşdırmanı, təbiətə qayğını, meşə sahələrinin genişləndirilməsi və ümumilikdə, təbiətin mühafizəsini böyük uzaqgörənliklə davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə muxtar respublikamız güllü-gülüstana çevrilib. Bu da ən böyük var-dövlətimizdir. Çünki təbiət dərdlərimizin dərmanı, bu günümüzün və sabahkı xoşbəxtliyimizin qaynağıdır. Bu mənada deyə bilərik ki, muxtar respublikamızın 90 illik tarixi ərzində Naxçıvanın təbiəti indiki qədər qorunmamış və zənginləşdirilməmişdir. Bizim də borcumuzdur ki, Q.Əliyev kimi təbiətin gülünün, çiçəyinin qoruyucusu olaq.

***Ötən 10 il ərzində Şahbuz rayonunun girişindən Batabat yaylağının Salvartıya dəyən yerinə kimi minlərlə ting əkilib, bağlar salınıb, onlara qulluq göstərilib. Unutmamalıyıq ki, o bağlar, o bağçalar həm meyvəsi, həm də gülü, çiçəyi ilə bizim təbii sərvətimizdir. Bu sərvətimizə gələcək xoş günlərimiz üçün sahib çıxmalıyıq. Bunun üçün təbiətimizi sevməli, ona övlad münasibəti bəsləməliyik.***

**Şəhla NƏBİYEVA**

# Mobil nömrələrin daşınma xidməti nədir?

***Bunun üçün nələri bilmək lazımdır?***

Nömrənin daşınması – abunəçinin nömrəsini saxlamaqla xidmət operatorunu dəyişə bilməsi imkanıdır. Yəni bu xidmət ümumistifadəli telekommunikasiya şəbəkəsi daxilində abunəçinin istifadə etdiyi mobil telefon nömrəsinin (şəbəkə kodu və nömrəni saxlamaq şərti ilə) həmin abunəçiyə xidmət göstərən mobil operatorun şəbəkəsindən çıxarılaraq digər mobil operatorun şəbəkəsinə daşınmasına imkan yaradır.

***İki, hətta üç operatorun nömrəsini eyni anda daşımağa ehtiyac qalmayacaq***

İndiyə qədər bəzi istifadəçilər iki, hətta üç operatorun nömrəsini eyni anda daşımaq məcburiyyətində idilər. İndi isə çoxsaylı nömrə daşınmasına ehtiyac yoxdur. Çünki mobil nömrə daşınması məhz telefon nömrəsini dəyişmədən mobil xidmətlər təchizatçısını dəyişmək imkanı deməkdir. Başqa sözlə, mobil nömrə daşınmasının tətbiqindən sonra abunəçilər öz mobil nömrələrini dəyişmədən bir mobil operatorun şəbəkəsindən digər mobil operatorun şəbəkəsinə keçmək imkanı əldə edəcəklər.

***Nömrə resurslarından effektiv istifadə, yüksəkkeyfiyyətli xidmət***

Xidmətin əsas məqsədi mövcud telekommunikasiya bazarında rəqabətin artırılmasına, operatorlar tərəfindən abunəçilərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsinə, nömrə resurslarından effektiv istifadənin təmin edilməsinə, istehlakçı hüquqlarının qorunmasına, abunəçilərin daha səmərəli xidmət təklifi təqdim edən operatorun şəbəkəsinə maneəsiz keçməsinə şərait yaratmaqdan ibarətdir.

***Abunəçi nömrənin daşınması üçün hara müraciət etməlidir?***

“Nömrə resurslarının ayrılması və istifadəsi Qaydaları”na əsasən, nömrə daşınması 6 iş günü ərzində həyata keçirilir. Abunəçi istifadə etdiyi sellülar (mobil) nömrənin daşınması üçün alıcı operatora (telekommunikasiya şəbəkəsinə abunəçinin sellülar (mobil) nömrəsinin daşınması nəzərdə tutulan mobil operator) müraciət edir. Alıcı operatorun nümayəndəsi abunəçinin fiziki şəxs olduqda şəxsiyyətini, hüquqi şəxs olduqda isə dövlət qeydiyyatına alınmasını müəyyənləşdirir. Abunəçi müvafiq ərizə formasını dolduraraq alıcı operatorun nümayəndəsinin iştirakı ilə imzalayır. Alıcı operatorun nümayəndəsi də ərizəyə atılan imzanın həqiqiliyini öz imza və möhürü ilə təsdiq edir. Abunəçi ərizəyə müvafiq sənədləri də əlavə edir. Belə ki, fiziki şəxslər şəxsiyyəti təsdiq edən sənədin surətini (əslini göstərməklə), hüquqi şəxslər isə hüquqi şəxsin dövlət qeydiyyatı haqqında və vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surətlərini təqdim etməlidirlər.

***Verici operator nömrə daşınmasından imtina edərsə...***

Qaydalar verici operatorun (Verici operator – telekommunikasiya şəbəkəsindən abunəçinin sellülar (mobil) nömrəsinin daşınması nəzərdə tutulan mobil operator) nömrə daşınmasından imtina hallarını müəyyənləşdirir. Belə ki, verici operator daşınması tələb olunan nömrə abunəçiyə aid olmadıqda; abunəçi barədə məlumatlarda səhv olduqda; daşınması tələb olunan nömrə üzrə borc olduqda; daşınması tələb olunan nömrə üzrə abunə müqaviləsinin dayandırılması barədə abunəçinin verici operatora müraciəti olduqda və ya müqavilə ləğv edildikdə nömrə daşınmasından imtina edir.

***Məhkəmə işi üzrə yekun qərar qəbul edilənə kimi mübahisələr olduqda da imtina halı mümkündür***

Həmçinin daşınması tələb olunan nömrənin verici operator tərəfindən abunəçinin istifadəsinə verildiyi tarixdən 3 (üç) ay müddət keçmədikdə (həmin abunəçinin fiziki şəxs olduqda şəxsiyyətini təsdiq edən sənədlərdə, hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrində olan məlumatlarda dəyişiklik edilməsi ilə əlaqədar müqavilənin yenilənməsi bu bənddə göstərilən müddətin yenilənməsinə səbəb olmur), verici operator və abunəçi arasında abunə müqaviləsindən irəli gələn hər hansı məhkəmə işi üzrə yekun qərar qəbul edilənə kimi mübahisələr olduqda da imtina halları mümkündür. Verici operator tərəfindən abunəçiyə son avadanlığın verilməsinə dair müqavilə üzrə pul öhdəlikləri abunəçi tərəfindən icra edildikdə verici operator nömrə daşınmasından imtina edə bilməz.

***Köhnə operatora dönmək istəyənlər 3 ay gözləməlidirlər***

Ola bilər ki, daşınmış nömrənin sahibi, yəni mobil istifadəçi yeni keçdiyi operatorun xidmətini bəyənməyərək yenidən əvvəlki və ya digər operatorun xidmətlərindən istifadə etmək istəsin. Bu prosesi həyata keçirmək üçün də müəyyən müddət nəzərdə tutulub. Belə ki, daşınmış nömrənin verici operatorun və ya digər mobil operatorun telekommunikasiya şəbəkəsinə təkrar daşınması sonuncu nömrə daşınması tarixindən 3 (üç) ay müddət keçdikdən sonra yerinə yetirilə bilər. Həmin abunəçinin fiziki şəxs olduqda şəxsiyyətini təsdiq edən sənədlərdə, hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrində olan məlumatlarda dəyişiklik edilməsi ilə əlaqədar müqavilənin yenilənməsi bu bənddə göstərilən müddətin yenilənməsinə səbəb olmur.

***Fərqli tariflərə görə abunəçilər üçün ayırdedici xəbərdarlıq siqnalı***

Prosesdə tarif şəffaflığı da əsas məsələlərdəndir. Tutaq ki, ailənizin ümumi büdcəsini nəzərə alaraq, qənaət məqsədilə bütün ailə üzvləriniz və ya dostlarınız eyni tarif paketindən istifadə edir və siz aranızda sərfəli tariflərlə danışırsınız. Əgər sizin məlumatınız olmadığı halda ailə üzvlərinizdən biri artıq fərqli tariflərdən istifadəyə keçərsə və ya sizinlə eyni tarif paketində olmayan dostlarınızdan sizə zəng gələrsə, zəng edən tərəf bununla bağlı məlumatlandırıcı, daha dəqiq, ayırdedici siqnal eşidəcəkdir. Bu siqnaldan sonra zəngi davam edib və ya etməmək isə artıq zəng edənin seçimidir. Beləliklə, qaydalar müəyyənləşdirir ki, verici operator öz telekommunikasiya şəbəkəsindən daşınmış nömrəyə edilən zənglər üçün abunəçilərə ayırdedici xəbərdarlıq siqnalını verir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

*2014-cü il üçün kotirovka elan edir*

*1.Təsərrüfat mallarının satın alınması*
*2.Dəftərxana ləvazimatlarının satın alınması*

Kotirovka 10 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 11 fevral 2014-cü il tarixdə saat $12^{00}$-də Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Ramil Məmmədxanov, telefon: 544-66-26***
***Ünvan: Naxçıvan şəhəri, “Azərbaycan” küçəsi 29***

### *Bildiriş*

İO Çevre Çözümleri Araşdırma Geliştirme LTD Şirkətinin Naxçıvan Muxtar Respublikası filialı fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 18, ev 9-da yaşamış Vəliyev Vəli Qasım oğlunun adına olan 1673 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin rəhbəri Sabir Məmmədov və bölmənin kollektivi iş yoldaşları Qalib Məmmədova, nənəsi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Musiqi Kollecinin kollektivi kollecin direktoru
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Bayram İsmayılova və Azadə Məmmədovaya, əzizləri
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin kollektivi iş yoldaşları Ceyhun Süleymanova, əzizi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İ.Qasımov adına Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Sədaqət Əsgərova və kitabxananın kollektivi iş yoldaşları Zəhra Babayevaya, qardaşı
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Filarmoniyasının direktoru Elman Əliyev və filarmoniyanın kollektivi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin direktoru Yunis Əliyev və şəbəkənin kollektivi iş yoldaşları Qulam Xəlilova, qardaşı
**ABBASIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 146